## Yeni formanın və metodiki tövsiyələrin təqdimatı

*Vergilər Nazirliyində keçirilmiş treninqdə dövlət satınalmaları üzrə müqavilələr barədə məlumatların elektron formatda təqdim edilməsi üçün yeni formanın və dövlət satınalmalarına vergi nəzarəti üzrə metodiki tövsiyələrin təqdimatı olmuşdur.*

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov tədbiri açaraq cari ilin ilk iki ayı ərzində Vergilər Nazirliyi qarşısında qoyulmuş tapşırıqların tam icra olunduğunu bildirmiş, vergi siyasəti, struktur dəyişiklikləri, normativ-hüquqi aktların tətbiqi ilə bağlı görülən işlər barədə məlumat vermişdir. O, son illər nazirlikdə həyata keçirilən dəyişikliklərin idarəçiliyin həyata keçirilməsinə böyük təkan verdiyini vurğulamışdır. Nazir müavini ötən il bir çox sahələr üzrə hazırlanmış metodiki tövsiyələr, onlara edilən dəyişikliklər və ərazi vergi orqanlarında mənimsənilməsi istiqamətində həyata keçirilən tədbirlər haqda məlumat vermişdir.
Sahir Məmmədxanov diqqəti 2011-ci ilin dövlət büdcəsi haqqında Prezident fərmanının 7-ci bölməsinə yönəltmişdir. Burada dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən investisiya layihələri üzrə keçirilən tenderlərin qalibləri ilə bağlanılan, habelə dövlət vəsaiti və dövlət zəmanəti ilə alınmış kreditlər hesabına mal (iş, xidmət) alınması ilə əlaqədar bağlanılan, məbləği 50 min manatdan yuxarı olan müqavilələr barədə məlumat formasının vergi orqanına təqdim edilməsi tapşırılmışdır. Fərmanın icrası ilə bağlı vergilər nazirinin əmrlərinə əsasən, müqavilələr barədə məlumatların elektron təqdim edilməsi üçün müvafiq forma və həmin formanın doldurulması qaydası təsdiq edilmiş, eləcə də məlumatların alınması, təhlil edilməsi və müvafiq tədbirlərin görülməsi üçün nazirlikdə yeni bir struktur - dövlət satınalmaları üzrə vergi nəzarəti şöbəsi yaradılmışdır. Nəhayət, bağlanılmış müqavilələr barədə məlumatların elektron təqdim edilməsi üçün yeni forma və həmin formanın doldurulması qaydası təsdiq edilmiş, dövlət satınalmalarına vergi nəzarəti üzrə Metodiki Tövsiyələr hazırlanmışdır.
Sahir Məmmədxanovun sözlərinə görə, yeni forma satınalmalar üzrə daha ətraflı məlumat almağa, dövlət satınalmalarına vergi nəzarətinin Metodiki Tövsiyələri isə bu sahədə vergitutma baxımından mövcud olan çatışmazlıqları daha səmərəli aradan qaldırmağa imkan verəcək.
Tədbirdə İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəis müavini Nazim Şükürov çıxış edərək bağlanılmış müqavilələr barədə məlumatların elektron təqdim edilməsi üçün yeni formanın və Metodiki Tövsiyələrin təsdiq edilməsinin dövlət satınalmalarının effektiv surətdə vergiyə cəlb edilməsi, vergidən yayınma hallarının qarşısının alınması, büdcə ayırmalarından səmərəli və şəffaf istifadə vasitəsilə vergitutma bazasının genişləndirilməsi üçün çox əhəmiyyətli olduğunu qeyd etmişdir.
Treninqdə İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Dövlət satın-almaları üzrə vergi nəzarəti şöbəsinin rəisi Vüqar Əliyev tərəfindən dövlət satınalmalarına aid müqavilələr üzrə yeni məlumat forması və onun doldurulması qaydalarının, eləcə də dövlət satınalmalarına vergi nəzarəti üzrə Metodiki Tövsiyələrin interaktiv şəkildə təqdimatı keçirilmişdir.

Arzu İBRAHİMOVA